UOT 94
https://doi.org/10.59849/2710-0820.2026.1.107

**Müşərrəf Həsənova**
*AMEA Tarix və Etnologiya İnstitutu*
*Azərbaycan*
*hesenovamusherref@gmail.com*

# ANTİK DÜNYADA HÖKMDARLIQ TİTULLARI: "ALBANORUM REX" VƏ "BASILEUS" İFADƏLƏRİ NÜMUNƏSİNDƏ

***Açar sözlər:*** *basileus, Albanorum rex, Yunan-Roma qaynaqları, Pompeyin triumfu*

## Giriş

Yunan və latındilli qaynaqlar Azərbaycan tarixinin müəyyən dövrləri üçün əvəzedilməz qaynaqlar hesab olunur. Lakin, təbii olaraq onların da mənbəşünaslıq baxımından əksik cəhətləri mövcuddur. Ümumiyyətlə, tədqiqat obyekti zaman dilimi çərçivəsində günümüzə nə qədər uzaq olarsa, onun öyrənilməsində bir o qədər problemlər yaşanır. Qədim dövr qaynaqları bir sıra şərtlər göz önündə saxlanaraq xüsusilə nəzərdən keçirilir. Mənbələrin əlçatanlığı, orijinallığı, səhihliyi, dilinin aydınlığı, müəllifin subyektiv fikirlərinin həqiqətlə uzlaşması, dönəmin siyasi, mədəni, sosial abu-havasının təsvirinin digər əsərlərdəki verilənlərlə üst-üstə düşməsi və bu kimi nüansların diqqətə alınması tarixçinin mövzuya adekvat yanaşmasını təmin edir, doğru nəticələrə çatmasını asanlaşdırır.

F.Məmmədova V.V.Bartolda istinadən yazır ki, yunan-latın ədəbi qaynaqlarının əlimizə gec, üzərində bəzi düzəlişlər edilmiş versiyaları çatır, həmçinin bəziləri tənqidi yanaşmalar olmayan, kompilyativ xarakterlidir, buna görə onlara daha diqqətli yanaşmaq gərəkdir [Мамедова, 2005, с. 277]. Qafqaz Albaniyasının öyrənilməsində antik mənbələrdəki məlumatlar son dərəcə əhəmiyyətlidir. Lakin antik əsərlərdə bir çox terminlərin ayrı-ayrı dövrlərdə fərqli məna kəsb etməsi siyasi şəraitin təhlilində qarışıqlığa, mahiyyətilə bağlı fikir ayrılığına səbəb ola bilər. Yunanca *basileus*, latınca *rex* kimi ifadə olunan titullar da bu qəbildəndir.

Antik müəlliflərdən Böyük Plini, Solin, Avqust, Flor, Yevtropi, Fest, Orosi, eləcə də Strabon, Dion Kassi, Appian və başqalarının əsərlərində alban çarının bəhsi keçir. E.ə. IV əsrin 30-cu illərinin hadisələrində Albaniya çarının iştirakını vurğulamağa çalışan Böyük Plini və Solinin epizodik hekayədə *rex* terminindən istifadə etmələrinə baxmayaraq, eradan əvvəl I yüzilliyin siyasi arenasında boy göstərmiş alban hökmdarının da *rex* ünvanı ilə ifadəsi tarixçilər tərəfindən birmənalı qarşılanmır. Belə ki, mənbələrdə Makedoniyalı İsgəndərin yürüşü ərəfəsində həm amazonların [Arrian, 1964, p. 247; Rawlinson, 1873, s. 499], həm də döyüşkən alban tayfalarının başçısı eyni mənşəli titulla (*rex, regina)* adlandırılır [Rufus, 1946, p. 45]. Bu fakt bütün əhalisinin yalnız qadınlardan ibarət olan əfsanəvi bir ölkənin varlığını gündəmə gətirdiyi kimi, danışılan zaman kəsiyində Albaniyada vahid dövlətin mövcudluğunun da sorğulanmasını tələb edə bilər.

Hər dövrü mərhələ özü ilə yeni terminlər gətirmiş, bəzən isə köhnələrinə yeni anlamlar yükləmişdir. *İmperator, tyrann, prefex, august* kimi *rex* titulunun da ehtiva etdiyi məna çaları Romanın siyasi tarixi qədər zəngindir. Krallıq, respublika, imperatorluq zamanında, quldarlıq cəmiyyətində, feodalizm quruluşunda fərqli statuslardan olan hakimlərə rex ünvanı verilmişdir. İstər rəsmi sənədlər, istər bədii əsərlər, istərsə də salnamələrdə müxtəlif dönəmlərdə ayrı-ayrı sifətləri özündə birləşdirmiş *basileus* titulu da beynəlxalq münasibətləri anlamaq baxımından böyük əhəmiyyətə malikdir. Bu xitabla hansı səlahiyyət sahibinə müraciət edilməsi, onun nə kimi rolunun olması, idari və ya qanunverici gücünün təsir dairəsi, nüfuzunun səviyyəsi qədim dünya tarixçilərini maraqlandıran suallardandır. Antik ədəbiyyatlarda Qafqazda yaşayan xalqlar, onların başında duran fiqurlar, sosial ierarxiya, dövlət strukturu, siyasi proseslər haqqında məlumatlar arasında

rast gələnən alban *rex*-i və alban basilevsi ifadələrinin mahiyyəti məqaləmizin başlıca mövzusudur.

***Rex Albaniae***

Albaniya haqqında məlumatlara qədim ədəbiyyatlarda əsasən e.ə. I - eranın IV əsrləri arasında Romanın Şərq siyasəti ilə əlaqədar baş vermiş hadisələr zəminində rast gəlinir. Antik müəlliflərə istinadən tədqiqatçıların bir qrupu alban konfederasiyasının yaranması prosesi və dövlətin vahid çar -*basileus* tərəfindən idarəsini e.ə. I yüzilliyə aid edirlər [Bais, 2023, p. 17]. Lakin Plininin "Təbii Tarix" əsərində Makedoniyalı İsgəndərə adı qeyd olunmayan alban çarı tərəfindən qeyri-adi xüsusiyyətlərə malik it hədiyyə edilməsi epizodu (*Indiam petenti Alexandro Magno rex Albaniae dono dederat inusitatae magnitudinis unum*) e.ə. IV əsrdə Albaniyada idarəetmə aparatının mövcudluğu məsələsinə diqqət yönəldir [Plinius, 1847-1848, p. 64].

Plininin e. ə. IV əsrin 20-ci illərində İsgəndərin Hindistan səfəri ərəfəsində baş vermiş hadisədə alban *rex*-i haqqında qeydi mübahisələrə açıqdır. Çox güman ki, əsərini yazdığı dövrdə Albaniyada dövlətin mövcudluğundan xəbərdar olan Plininin alban *rex*-i ifadəsinin dövrün siyasi mühiti zəminində formalaşması ehtimalı böyükdür. Eyni zamanda III əsr müəllifi Solinin kompilyativ toplusunda da həmin ifadəyə rast gəlinir [Solinus, 1895, p. 83]. Marco Bais Əhəmənilərin süqutu ərəfəsində albanların başçısının *rex* kimi təqdim edilməsini sorğulayır və dövlət strukturunun yaranmasını daha sonrakı dövrlərə aid edir [Bais, 2023, p. 69]. G. Traina M.Baisdən fərqli olaraq, Plininin alban itlərilə bağlı hekayəsinə daha pozitiv yanaşma nümayiş etdirir. Onun fikrincə, Böyük İsgəndər Qafqazdan keçməsə belə, ona anonim alban çarı tərəfindən qeyri-adi ölçülü itlərin hədiyyə kimi göndərilməsi mümkün ola bilər. Tarixçi eyni zamanda *rex* və *basileus* terminlərinin "elastikliyini" də nəzərə almağın tərəfdarıdır [Traina, 2003, p. 318-319].

Alban çarının *rex* adlandırıldığı digər mənbə Ankir yazılarıdır. Avqustun gördüyü işlər Ankarada inşa edilmiş məbədin divarlarına iki dildə (qədim yunan və latın) qırmızı boyayla həkk olunur [https://www.britannica.com/topic/Monumentum-Ancyranum 27.02.26]. Mətndə həmçinin Avqustun Avropada, Afrikada Roma idarəsinə qatdığı ərazilər, Armeniyanı [Paterculi, 1822, p. 200-201] ələ keçirdikdən sonra həyata keçirdiyi hakimiyyət dəyişiklikləri, Hindistan hakiminin tez-tez səfirlər göndərməsi, sarmatların, iberlərin, albanların ve medlərin hökmdarları tərəfindən dostluq müraciətlərinin edilməsi öz əksini tapır: "*Nostram amicitiam petierunt per legatos Bastarnae Scythaeque et Sarmatarum qui sunt citra flumen Tanaim et ultrá reges, Albanorumque réx et Hibérorum et Medorum*"[https://archive.org/details/resgestaediviau01augugoog/page/72/mode/1up 27.02.26] Bu abidənin də tarixi eranın I əsrinə aid edilir [https://penelope.uchicago.edu/Thayer/E/Roman/Texts/Augustus/Res_Gestae/5*.html 27.02.26].

Korneli Tasit "Annallar" əsərinin 4-cü kitabının 5-ci fraqmentində Suriyadan Fərat çayına qədər uzanan ucsuz-bucaqsız torpaqların dörd legion tərəfindən ələ keçirildiyini yazarkən yaxın ərazilərdə hökmranlıq sürən iber, alban və digər xalqların krallarının Romanın böyüklüyü sayəsində sərhəddəki dövlətlərin təcavüzündən qorunduqlarını da vurğulamağı unutmur: "*Dehinc initio ab Syrio ufque ad flumen Euphraten, quantum ingenti terrarum finu ambitur, quatuor legionibus coercita: accolis İberio, Albanoque, et aliis regibus, qui magnitudine nostra proteguntur adversum externa imperia.*" [Алиев, 1986, c. 22]. Müəllifə görə İberiya çarı Farasman albanların hökmdarı ilə müharibədə ikən qardaşının ona qarşı çıxdığını bəhanə gətirərək Romadan kömək istəyir: "*interim Pharasmanes belli causas confingit: proelianti sibi adversus regem Albanorum et Romanos auxilio vocanti fratrem adversatum, eamque iniuriam excidio ipsius ultum iturum" Daha sonra Farasman müharibə üçün bəhanə uydurur, öz dövründə albanların kralı ilə vuruşarkən romalıları köməyə çağırmaq istəyirdi, (qardaşının qarşı çıxmasına baxmayaraq) (bu təhqirə cavab olaraq) bu zədənin qisası onun məhvi ilə alınır).* [Solinus, 1895, p. 380; Алиев, 1986, c. 44]. Diqqət etsək, burada da *rex* titulundan istifadəni görərik. Antik müəlliflərdən Fest isə bildirir ki, Qney Pompey Armeniyada Tiqranı taxtdan saldıqdan sonra

Aristarxı bosforluların və kolxların taxtına oturdur. O, albanlarla üç dəfə döyüşüb onları məğlubiyyətə uğradır, çar Orodla sülh bağlayır. İber çarı Artaks təslim olur: "*atque intra Armeniam maiorem regnare permissus est. Idem Pompeius Bosphorianis et Colchis Aristarchum regem inposuit, cum Albanis conflixit, Orhodi, Albanorum regi, ter uicto pacem dedit, Hiberiam cum Artace rege in deditionem accepit*" [Латишев, 1906, с. 321]. Müəllif həmçinin başqa bir fraqmentdə də *rex* terminini işlədir [https://www.turkishmuseums.com/museum/detail/1946-ankara-augustus-tapinagi/1946/1 27.02.26]. Trayan dövründə Roma Şərq istiqamətində ərazilərini genişləndirməkdə davam edirdi. Armeniya Parfiyanın əlindən alınır, albanlara kral göndərilir, savromatlar, bosforlular, ərəblər, osroenilər və kolxlar təəbəliyə götürülür [Латишев, 1906, с. 320]. Fest Nerondan sonra hakimiyyətə gələn Trayanın qələbələrini vəsf edir. O da Yevtropi kimi Parfiya üzərində üstünlük qazanan imperatorun albanlara bir çar- *rex* verməsindən yazır: "*Armeniam, quam occupaverant Parthi recepit, Parthomasiri occiso, qui eam tenebat. Albanis regem dedit. Hiberorum regem et Sauromatarum et Bosphoranorum et Arabum et Osdroenorum et Colchorum in fidem accepit"* [Festus, 1967, p. 62].

Lusi Flor Mitridat müharibəsini daha epik dillə şərh edir. Dənizlərdə piratlarla mübarizəsindən və Asiyada baş qaldıran krallara qarşı uğurlu döyüşlərindən sonra *Magnus* ləqəbi almış Pompey Tiqranı məğlub etdikdən sonra onu əfv edir, kolxlara qalib gəlir, iberləri və albanları bağışlayır. Onların padşahı (*regem horum*) Orodun qızıldan taxt və başqa hədiyyələrini qəbul edir, İberiya hakimi Artokun övladlarını əsir kimi götürür: "*At in septentrione Scythicum iter tamquam in mari stellis secutus Colchos cecidit, ignovit Hiberiae, pepercit Albanis. Regem horum Oroden positis sub ipso Caucaso castris iussit in plana descendere, at Arthocen, qui Hiberis imperabat, et obsides liberos dare; Oroden etiam muneravit, ultro ab Albania sua lectum aureum et alia dona mittentem"* [Florus, 1929, p. 180; Livius, 1872, p. 56].

Pavel Orosi əsərində Romanın şanlı səhifələrindən olan Pompeyin qələbələrini, gördüyü işləri, 22 krala qarşı mübarizəsini vəsf edir [https://www.attalus.org/translate/orosius6A.html 27.02.26]. Nikopolis şəhərini salıb yaşlıları, xəstə və yaralıları burada yerləşdirdikdən sonra Pompey Tiqranı bağışlayır. O, qışı məhsuldar ərazi sayılan Artaksatda keçirmək əvəzinə ordusuyla Kürün şimal axarına üz tutur, İberiya və Albaniyanın döyüşkən tayfalarını məğlub edərək Roma gücünü Anadoludan uzaq torpaqlara yayır, Mitridatla müharibəsində arxadan gələcək istənilən zərbəni neytrallaşdırmaq məqsədilə bir sıra addımlar atır. E.ə. 66/65-ci ildə Alban tayfalarının ali hökmdarı öz qüvvələrini toplayaraq 3 ayrı istiqamətdə Roma ordusuna hücum üçün Kür çayını keçir [Adcock, 1932, p. 255-256]. V əsr tarixçisi və teoloqu Orosinin təsvirinə görə Pompey Qafqaz səfərində albanların kralı və onun prefektlərini (*exercitum Horodis Albanorum regis praefectosque eius*) 3 dəfə məğlub edir. Orodun sülh məqsədilə göndərdiyi məktubu və hədiyyələri qəbul etməkdən məmnun olan Pompey İber kralı Artokun ordusuna qarşı döyüşdə qələbə qazanır [https://www.attalus.org/translate/orosius6A.html 27.02.26]. Qədim Roma cəmiyyətində müddətlik hərbi tapşırıq yerinə yetirməsi üçün hökmdar və ya imperator tərəfindən təyin edilən ordu rəhbərləri- prefektlər [https://www.livius.org/articles/concept/prefect/ 27.02.26] hər hansı bir fövqəladə vəziyyətdə hökmdarın yoxluğunda onun adından ali hakimiyyəti təmsil edə bilən atlı sinfin nümayəndələri idilər [Smith, 1890, p. 476]. Qney Pompeyin əyalətlər haqqında təklif etdiyi qanunun tətbiqini təkrarlayan imperator Avqustun dönəmində hakim sinfi 3 qrupa ayrılır. Prefektlər böyük əyalətlərin müəyyən hissəsini idarə edən cəngavərlərə çevrilirlər. Eranın I əsrinin ortalarından etibarən onları mülki və maliyyə işlərini də əlində cəmləşdirən Roma elitasının mühüm figurlarından seçilən *procurator.lar* əvəzləyir [https://web.archive.org/web/20150504221228/http://www.livius.org/gi-gr/governor/governor.html 27.02.26].

M.Hacıyev qeyd edir ki, Orosi məlum şərhində prefektorları Alban çarına tabe olan ölkənin inzibati-ərazi vahidlərinin hakimləri kimi nəzərdə tutur. Antik mənbələrdə Kaspiana, Ote-

na, Kambisena, Lupeniya kimi etnosiyasi bölgələrin adları çəkilir və çox güman ki, *praefectos* həmin vilayətlərin kraldan asılı olan mülkədarları idilər [Гаджиев, 2006, с. 20]. M.S.Hacıyev V əsr erməni mənbələrində Albaniya hökmdarı ilə yanaşı, tərkibinə daxil olan əyalətlərin çarlarının da adına rast gəlindiyini vurğulayır. Strabonun Pompeyin yürüşü ərəfəsində çoxsaylı alban tayfalarına bir hökmdarın rəhbərlik etdiyi, əvvəllər isə hər tayfanın öz hakiminin olması faktına şübhə yeri qoymayan Orosinin məlumatı e.ə. I əsrdə Albaniyada konfederativ dövlətin mövcudluğunu təsdiqləyir. Özündən əvvəlki sistemin ierarxik quruluşunu miras almış Mehranilər dövründə bütün ölkənin idarəsinə rəhbərlik edən çar bəzi erkən orta əsr qaynaqlarında Böyük İşxan, əyalət hakimləri isə *ter* termini ilə ifadə olunur [Пилипчук, 2021, с. 333]. İşxan titulunun ilk dəfə ortaya çıxdığı yüzillikdə yaşayıb yaratmış Orosinin inzibati-siyasi struktur haqqında təsəvvür yaratmağa imkan verən qeydi Qafqaz Albaniyasının sosial terminologiyasını öyrənmək baxımından mühüm sayılır.

A.Coşkun "Galat Krallıqları" məqaləsində *rex*-in "*amicus populi Romani*" statusuna uyğun bir çox krallıqlarda həm təşkilati idarəni, həm də etibarı yansıdan irsi xarakterini vurğulayır [Coşkun, 2021, s. 124]. Klassik çağın *rex*-i yunan şəhər-dövlətlərinin arxontları idilər. Ksenofont Anabasisində yunan döyüşçülərinin keçdiyi kral ərazilərini sadalarkən vilayətlərin hakimlərini *arxontes*, kralı isə basileus adlandırır [Ksenophon, 2021, s. 248]. Yunan arxontları kimi Əhəmənilərin ordu rəhbərləri tayfa başçılarından ibarət əsilzadələr idi, döyüşdə hərbi əmr gücünə, sülh şəraitində isə bölgədə müəyyən hökmə malik idilər, kral onları təyin edə, əvəzləyə bilərdi [Wiesehöfer, 2023, s. 115].

A.P.Novoseltsev orxontları Ksenefontdan nümunə gətirərək tayfa başçıları hesab edir [Новосельцев, 1980, с. 99-100]. Fikirlərini mossinoiklər üzərində izah edən müəllif basileusla yanaşı arxontların mövcudluğu faktı üzərində durur. Bu, bir sıra erkən sinifli cəmiyyətlərdə olan (xəzərlər, göytürklər və s.) ikili hakimiyyətdən xəbər verir. Basileusun səlahiyyətləri haqqında tarixşünaslıqda müxtəlif fikirlər səslənsə də, onun kahinlik mahiyyəti inkar edilmir [Новосельцев, 1980, с. 99-100].

Ellinizm çağının basileusu *basileianı*, yəni krallığı idarə edən şəxs kimi qarşımıza çıxır. *Basileia* sərhədləri başqa xalqları məğlub edərək genişləndirilmiş, fatehinin qismən qeyri-məhdud nüfuzu ilə bilinən, çoxsaylı tayfa birliklərinin "mizraqla qurulmuş" krallığı idi.[38] G.Ostroqorski Erkən Bizans dönəmi *basileus* titulunun verildiyi hökmdarların dövlətlərini 4 qrupa bölür: Bizans tərəfindən suverenliyi heç vaxt şübhə altına alınmayan ölkələr (Sasanilər); imperiyanın şərq periferiyasında yerləşən milli krallıqlar (Armeniya, Qafqaz bölgəsi və Qara dəniz sahili krallıqlar (İberiya, Lazika, Abasgiya, Bosfor çarlığı), Şərqi və Şimali Afrika krallıqları (Efiopiya, Nubiya, Blemyan); ucqarlarda lakin Bizans sərhədləri daxilində muxtar satraplıqlar, filarxiyalar (Armeniya satraplıqları, Suriya səhrasının köçəri ərəb filarxiyaları); imperator razılığı ilə keçmiş Roma əyalətlərinin torpaqlarında müvəqqəti və ya daimi, möhkəmlənməyə müvəffəq olmuş barbar xalqlarının çoxsaylı milli krallıqları (vestqot, osqot, vandal, burqundiyalı, lombardlı, herul, frank və hunlara məxsus (Atilla) krallıqlar [Chrysos, 1978, p. 32-33]. O vurğulayır ki, iki böyük güc mənbəyi arasında qarşılıqlı bərabərliyin tanınması, Bizans imperatoru və Sasani şahənşahının bir-birinə qarşı mövqe ləyaqətinin qorunması müşahidə olunur. İmperatorun *basileus* müraciətinə Sasani hökmdarı *quaisar-i Rum* (Rum qeysəri) xitabı ilə cavab verirdi [Chrysos, 1978, p. 100]. Şahənşahın (*basileus basileon*) qarşı tərəfə rəsmi şəkildə *basileus* titulunu verməməsinin səbəbi böyük şahın tabeliyində olan əyalət hakimləri ilə imperatoru eyni statusa qoymaq kimi qeyri-siyasi addımdan ehtiyyat ola bilər. Bizans monarxını vassal kralları ilə bir hüquqda görməkdən çəkinən Sasani monarxı imperator, avqust titulları əvəzinə qeysər- kayzer ünvanına üstünlük verməsi hakimiyyətin irsi legitimliyinin tanınmasına işarə sayılır.

Chrysos Bizans imperiyası sərhədləri daxilində və müttəfiq qonşu krallıqlarda taxt sahibinə verilən adları təhlil edərkən Qafqaz

[38] İmperatorluq sənədlərinin protokollarında *basileus* ünvanının qəbuluna dair ilk nümunə 1905-ci ildə L.Brehier tərəfindən kəşf edilir. 629-cu ilə aid sənəddə imperator Herakliosun rəsmi şəkildə titulu qəbul etdiyi görülür. Bu kəşfi ilk dəfə Roma Anayasası məzmununa dair bir konfransda J.B.Bury istifadə edir.

bölgəsinə ayrıca toxunur. O, Ermənistan coğrafi ərazisində rex, basileus titullarının qəbulu zamanı siyasi mühiti formalaşdıran şəraitə aydınlıq gətirdikdən sonra eyni səbəbləri Lazika, İberiya, Abazgiya və Albaniyaya da aid edir. Dövrün iki güc qütbü üçün Qafqaz strateji əhəmiyyətə malik idi. Hər iki imperiya bu səltənətlər üzərində siyasi, hərbi, mədəni, eləcə də dini təsirə sahib olmağa səy göstərirdi.

VI yüzillikdən etibarən Bizans müəllifləri Qərbi Roma imperiyasının yenicə fəth edilmiş ərazilərindən olan "barbar" hökmdarları ifadə etmək üçün *rex*-dən istifadə edirlər [Chrysos, 1978, з. 100]. Yustinianın dövründən ellinizm elementlərinin geri qaytarılması cəhdləri imperator hakimiyyətinin ilkin xarakterinin itirilməsi ilə əlaqədar idi. Xristianlığın geniş şəkildə yayılması sonrası monarxların həm də dini siması onların məhz rəsmi sənədlərdəki titullarına da təsir etməyə başladı.

Yunan basileusu haqqında deyilənləri ümumiləşdirsək, orduda üstün statusu, ali kahinliyi, irsi mövqeyi, hökm səlahiyyətinə sahib, sülalə başçısı olan monarx idi. Basileus tituluna Nikephoros III Bataniatesin hakimiyyətindən sonra rast gəlinmir.

İmperiyalar böyüklüyündən əlavə, keçilməz relyefə və təhlükəli ərazilərə sahib fərqli mədəniyyətlər və topluluqlar, dillər və iqtidar sistemlərinin qarışıq birləşimi idi. Kral ucsuz-bucaqsız imperiyanı tək idarə edə, nəzarətdə saxlaya və eyni anda hər yerdə ola bilməzdi. Əhəmənilərin satraplıq siyasəti imperiyanın ucqarlarını da nəzarətdə saxlama imkanı verirdi. İsgəndər və ondan sonrakı yaranmış dövlətlər, xüsusilə Selevki və özünü Əhəməni varisi hesab edən Parfiya idari quruluşu saxlamaqla, satrap şəbəkəsinə etibar edirdi. Raulinson Parfiyada dövlət quruluşu məsələlərinə toxunaraq, I Mitridatın dövründən etibarən monarxiyanın imperiyaya çevrildiyini, vahid rəhbər altında, əsasən müharibə məqsədi üçün bir araya gələn şeflərin (reks, çar, hegemon) cəmi olan Parfiya monarxiyasının məhdud xarakterli olduğunu deyir. Belə ki, kral iki qurum tərəfindən tövsiyə edilirdi: kral ailəsində yetişkin fərdlərdən ibarət Ailə məclisi- *Consilium domesticum*, əyalətin ruhani və aqil dünyəvi rəhbərlərindən ibarət *Megastanes.* İkincilərə "*magi*" və "*sophi"* adlı soylular sinfi daxil idi. Taxta oturduqdan sonra despotik tərzə bürünən kral narazı ailə üzvlərinə qarşı amansız ola bilərdi, lakin Megistanlıların qədimdən gələn xalq arasındakı nüfuzundan çəkinər, onların nifrətini qazanmaq istəməzdi.[39]

Əhəməni hökmranlığının süqutu keçmiş satrap- gələcək krallara geniş imkanlar yaratmaqla bərabər, qanuni hakimiyyətlərini möhkəmləndirmək üçün şərait də yaratmış oldu. İsgəndər soylu sinfinin nümayəndəsi olan Atropatı öz mövqeyində - Kiçik Midiyanın satraplıq taxtında saxladı [Латишев, 1906, с. 282-83]. Bu ünvan medlərlə yanaşı albanların da başında duran satrap Atropatı [Arrian, p. 247] İsgəndərə itlər hədiyyə edən Alban *rex*i ilə [Plinius, 1847-1848, p. 61] zaman baxımı və məntiqi cəhətdən eyniləşdirməyə imkan verir. [Həsənova, 2025, s. 945-946].

Qafqaz Albaniyasının tədqiqi ilə məşğul olan tarixçilər erkən orta əslərdə dövlətin idarə edilməsi, dini və siyasi qərarların qəbulu, sosial münasibətlərin nizama salınmasında ruhani təbəqənin təsiri barədə yekdildirlər. Qafqaz Albaniyasında erkən orta əsrlərdə paqanist kahinləri əvəzləyən xristian rahiblərinin siyasi məsələlərdə, beynəlxalq münasibətlərdə, mədəniyyət sahəsində, sosial normaların tənzimlənməsində səlahiyyətlərinin artdığı müşahidə olunur [Мамедова, 2005, с. 550; Мамедова, 1986, с. 235; Efendiyev, 2018, s. 46, 64-80;Qukasyan, 1993, s. 21, 47-48; Xəlilov, 2019, s. 46-48].

Beləliklə, antik çağın yunan *basileus*u ilə Şərq satrapını eyniləşdirən xüsusiyyətləri analiz

---

[39] Seneka da həmin sinfin nümayəndələrini Megistanes adlandırır [32, s. 194]. Mary Boyce zərdüştilərlə bağlı tədqiqatında təsdiqləyir ki, onların ali ruhanilərinin xarakterik titulu Avestada *aethrapati* (atropat) sözündən götürülmüş *erbad*dır. Erbad və mobad Sasani dövründə mövcud olmuş din xadimləri idilər [7, p. 97]. *Mobadan mobad* kahinlərin kahini, bütün rahiblərin rəhbəri sayılırdı [7, p. 122]. Digər adıyla *magupati* səlahiyyətində olan din xadimlərinin də iştirakı ilə müqəddəs odun daim qorunmasından məsul idi [7, p. 65]. Həmçinin, Boyce bildirir ki, Zərdüştlüyün məbədlərə, ziyarətgahlara və geniş mülklərə malik olan və getdikcə artan sayda keşişlərin xidmət etdiyi bir imperiya inancı kimi böyüməsini Əhəmənilər dövründən izləmək olar. Midiya, Əhəməni, Parfiya və Sasanilərin son zamanlarınadək özlərinin nüfuzunu qoruyub saxlaya bilmiş ruhani sinfi hər dönəm öz fəaliyyətlərinə yenilərini əlavə edir, katib, təbib, tərbiyəçi, *atabəy* pillələrinə qədər qalxırdılar [12, p. 31. Buna görə də ali kahinin şahın yaxın adamlarından seçilməsi təsadüfi sayıla bilməz.

etsək, görərik ki, hər iki terminin mahiyyəti mənbələrdəki ekzonimlərə baxmayaraq, hökmdarın profilindən xəbər verir.

Raulinson Plininin Parfiyanın yuxarı əyalətlərini krallıq adlandırmasını doğru, yunanların satraplıq terminini yanlış hesab edir [Rawlinson, 1873, s. 84-85]. Satrap ünvanının Parfiya sistemində öz mənasını itirərək, krala bərabər bir titul olduğunu düşünür. Digər bölgələri (aşağı xanədanlıqlar) isə *vitaxae* (bistaskes) və ya elmi ədəbiyyatlarda *viceroys* kimi keçən hökmdarlar idarə edirdilər. Ammian Marsellinin Parfiya kiçik krallarına işarə etdiyi *vitaxae-bistax/vistax* məhz basileusa bərabər tutulan mövqe idi [https://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A2007.01.0084 27.02.26]. Parfiya dönəmində satrap titulu öz yerini "rex-king" və ya basileusa verir. Tapılan sikkələr üzərində monarxı ifadə edən *basileus basileon* krallar kralı kimi tərcümə olunur. Pseudo-Callisthenes-də Dara Makedoniyalı həmkarına məktubunda özünü krallar kralı- *basileus basileou, Teos Megas* adlandırır [https://www.attalus.org/translate/alexander1d.html#39 27.02.26]. Bisütun yazısının giriş hissəsində Daranın sadaladığı ünvanlar arasında *hşayadiya hşayadiyanam* (farsca şahənşah) zamanla İran hökmdarlarının istifadə etdiyi titul oldu. *Basileus basileon* bir çox fərqli mənşəli xalqların və ölkələrin hakimi mənasını ifadə edirdi [Алиев, 1986, s. 53]. Parfiya həm ellin, həm də Əhəməni mirasına I Mitridatdan etibarən sahib çıxmağa başlayır, basılan sikkələrdə yunanca forması oxunur. Sonralar VI Mitridat Eupator və II Tiqran keçmiş imperiyanın şərq və qərb torpaqlarında hakimiyyətlərini qanunilәşdirmək baxımından bu titula iddialı oldular. Pontus kralının özünü Persian və Makedon köklərinə bağlamaq cəhdindən əlavə, krallıqlarından ibarət alians da ona bu ünvana sahiblik haqqının tanıması üçün şərait yaratmış oldu. Krallar kralı titulu monarxın digər bölgə rəhbərləri üzərindəki üstünlüyünü vurğulayırdı [Gatzke, 2019, p. 69-70].

### *Mənbələrdə "alban basileusu" ifadəsi*

Eramızın ilk əsrlərində *rex* termini yunan dilində yazılmış ədəbiyyatlarda *basileus*la əvəzlənir. Strabon Cənubi Qafqaz xalqlarından bəhs edərkən 26 dildə danışan albanlara əvvəllər ayrı-ayrı hökmdarların, indi isə bir çarın-*basileus*-un başçılıq etdiyini vurğulayır [Strabo, Geography, BOOK XI., CHAPTER IV., section 6 27.02.26]. Əsasən Lukull, Pompey, Antoninin Şərqə yürüşləri ərəfəsində keçmiş Əhməni vilayətlərinin hakimlərinə ünvanlanan bu titul latın mənbələrində *rex*, yunan mətnlərində *basileus* kimi qarşıya çıxsa da, hər iki adlandırma tarixçilər tərəfindən mahiyyət etibarilə fərqləndirilir. E.A.Bəkirova *basileus* termінin Azərbaycan dilində birbaşa qarşılığının olmadığını və kral- rəhbər mənasında ifadə edildiyini yazır [Bakirova, 2024, p. 33].

Appian Pompeyin Mitridat Evpatoru Kolxidaya qədər təqib etməsindən yazarkən, generalın məşhur Qafqaz dağlarını görmək arzusunu da yada salır. Pompeyin ordusuna qonşu müttəfiq tayfalar qoşulsalar da, albanlar və iberlər ona qarşı mübarizə aparırlar. Albanların kralı Oroys və iberlərin kralı Artok 70 minlik ordu ilə Kür çayı sahilində Roma ordusunu tələyə salmağa hazırlaşırlar [https://topostext.org/work/496 27.02.26]. Pompey pusquda gözləyənlər haqqında məlumat aldıqdan sonra hərbi gedişlərlə onlara qalib gəlir, əldə etdiklərini Romada triumf zamanı sərgiləyir [https://topostext.org/work/496 27.02.26]. Dənizləri quldurlardan təmizləyən, dövrün qüdrətli krallarının gücünü zəifldən, Pont müharibəsindən qalib ayrılan, kolxlar, albanlar, iberlər, ermənilər, medlər, ərəblər, yəhudilər və digər Şərq xalqlarını tabe edən, Roma hakimiyyətini Misirə qədər yayan Pompey Maqnusun təntənəli yürüşü saysız-hesabsız qənimətləri səbəbilə iki gün çəkir. Mitridatın 5 oğlu, 2 qızı, yəhudilərin çarı, Kilikiya tiranları, Skifiyanın qadın hökmdarları, kolxların 1, iberlərin 3, albanların 2 hegemonu, Mitridatın süvari dəstəsinə başçılıq etmiş Laodikiyalı Menander və başqaları əsir götürülən 324 əsilzadə arasında nümayiş olunurlar. Tutulan ölkələrin krallarının adları lövhəyə həkk edilir: Armeniyadan Tiqran, İberiyadan Artok, Albaniyadan Oroys, Midiyadan Dara, Nabataeyadan Aret, Kommagendən Antiox [http://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A1999.01.0229%3Atext%3DMith.%3Achapter%3D17%3Asection%3D117 27.02.26]. F.Məmmədova düşünür ki, Tiqran

və onun ailəsindən fərqli olaraq, albanların və iberlərin hökmdarları Pompeyin triumfunda nümayiş edilməklərinə imkan verməmişlər. Qələbə lövhəsində məğlub edilən krallar siyahısında Oroysun da adının yazılmasına baxmayaraq, tarixçinin fikrincə, nə Albaniya, nə də İberiya Roma əyalətinə çevrilmədi [Мамедова, 2005, с. 279]. Alban çarının, yoxsa ordu rəhbərlərindən ikisinin əsirlər arasında olması müzakirəyə açıqdır, lakin həmin dövrün siyasi atmosferini doğru təhlil etməkdə də fayda vardır. II Tiqran qonşu torpaqları öz dövlətinə birləşdirməklə ərazisini genişləndirmiş, Parfiya, Pont çarlığı, Qafqazın bir sıra bölgələri ilə ittifaq yaratmış və dövrün güc sahiblərinin onunla hesablaşmasına səbəb olmuşdu. Triumfda girov krallar arasında Tiqranın xüsusi vurğulanmasında məqsəd Pompeyin qələbəsinin əhəmiyyətini daha da artırmaq ola bilərdi. Triumfda girov götürülən rəhbərlər titullarla, lövhədə isə fərqli titulları olmadan, bir ad (*basileus)* altında sadalanır.

Həmin epizodu təkrarlayan Dion Kassi də Roma ordusunun qarşısını almaq üçün Kür çayının digər tayından hücuma keçən Oroysu *basileus* kimi qələmə verir [Dio, 1914, p. 92-93]. Plutarx Mitridatın izinə düşərkən müttəfiqləri olan Qafqaz dağlarının sakinləri iber və albanlarla Pompeyin qarşılaşmasını təsvir edir. Yunan tarixçi bu tayfaların rəhbərlərini *basileus* adlandırır. Hətta romalı generalı yaralayan alban ordusunun başçısı Kosisi çarın qardaşı deyə təqdim edir [https://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A2008.01.0058%3Achapter%3D35%3Asection%3D2 27.02.26]. Dion Kanidi Krassın İberiyaya yürüşü, çar Farnabaz üzərində qələbəsi, qonşu Albaniya ərazisini tabe etməsi və çar Zoberi ittifaqa gətirməsi haqqında məlumat verərkən yenə hər iki hakim üçün *basileus* ifadəsini işlədir.

Parfiya- Roma, Sasani - Roma müharibələri nəticəsində Albaniya tez-tez əl dəyişdirirdi. Eranın ilk əsrlərində burada Roman təsiri hiss olunmağına baxmayaraq, Parfiya ilə iqtisadi və mədəni əlaqələr kəsilmirdi. Qobustanda üzərində latınca yazı olan daş kitabənin tapılması və eyni zamanda II Qotarza aid gümüş sikkələrin aşkar edilməsi Albaniyanın siyasi hadisələrdən kənarda qalmadığını göstərir [https://iranicaonline.org/articles/albania-iranian-aran-arm 27.02.26].

Əhəmənilər dövründə yaranan satrapiyalar Romanın da Şərqdə uzun müddət saxladığı, yerli varislər tərəfindən idarə olunan, monarxa vergi ödəyən siyasi birliklər idi. 387-ci ildə (və ya 378) Armeniyanın bölünməsi, Sasanilərin Lazikadan əlini çəkməsi, İberiyada krallığın ləğvi və digər siyasi hadisələrin təsiri Albaniyadan yan keçmədi [https://iranicaonline.org/articles/albania-iranian-aran-arm 27.02.26]. Qafqazın bütün krallıqları eyni taleyi yaşadı [Garsoian, 1997, p. 104]. Albaniyada feodalizmin inkişafını izləməyə imkan verən erkən orta əsrlər mənbələri siyasi-idari quruluşu, ierarxik sistemi də anlamağa kömək edir. Albaniya çarı bütün hərbi qüvvələrinin baş komandanı, dini və dünyəvi səlahiyyətlərə sahib hakimiyyət orqanlarının rəhbəri, kilsə şuralarını çağıran, qanunlar qəbul edən ölkənin ali hakimi idi [Мамедова, 1986, с. 166]. VI-VII əsrlərdə Albaniya kralı şahənşahın vassalı kimi hakimiyyətini qoruyub saxlasa da, mülki, dini, hərbi səlahiyyətləri əlində cəmləşdirən mərzbanla hesablaşmalı olurdu [Тревер, 1959, с. 178-179]. Mərzbanları keçmiş basilevslərin hökm qüvvəsinə şərik çıxan və ya birbaşa səlahiyyətlərinə yiyələnən imperiya canişini kimi anlamaq olar.

**Nəticə**

Eradan əvvəl I əsr və bizim eranın I-V əsrlərində tərtib edilmiş antik qaynaqlarda Qafqaz Albaniyası haqqında yazılanlar ölkənin siyasi-inzibati strukturu barədə təxminlər irəli sürməyə imkan verir. Bu qeydlər yerli alban mənbələrindəki məlumatlarla qarşılaşdırıldıqda obyektiv nəticə üçün əsaslı zəmin yaranır. Yunan-latın dilli ədəbiyyatlarda istifadə olunan bəzi terminlərin mahiyyəti hadisələrin baş verdiyi zaman dilimi ilə uzlaşmasa da, müəlliflərin yaşadığı dövr üçün aktual və bilinən ifadələr sayılır. Antik yazarlar tərəfindən anlayışların ehtiva etdiyi mənalara toxunmadan epizodları çatdırması dövrün tədqiqatçıları qarşısında bir çox suallar qoyur. Plini və Solinin əsərlərində bəhsi keçən Albaniya *rex*-i ilə Avqustun, Orosinin, Florun, Festin alban *rex*-i eyni statusa və muxtariyyətə sahib olmaya bilərlər. Mənbələrə əsasən e.ə. I əsrdə Pompeyin Qafqaz yürüşü ərəfəsində

Albaniyanın vahid çar tərəfindən idarə olunmasını nəzərə alarsaq, konfederasiyanın yaranması prosesinin başa çatmasını da həmin xronologiyaya sığdırmaq olar. Bu, e.ə. IV əsrin 20-ci illərində epizodik hekayə ilə bağlı bəhsi keçən alban rexi ilə e.ə. I yüzilliyin siyasi hadisələrində iştirakı qeyd edilən alban rexinin, nüfuz dairəsi, ictimai və beynəlxalq münasibətlərdə rolunun terminoloji baxımdan ayrı-ayrı çərçivələrdə dəyərləndirilməsinə gətirib çıxarır.

Tarixçilərin əksəriyyəti *rex*-lərin əsasən tayfa başçıları olub müharibə dövründə hərbi komandan kimi önə çıxmaları üzərində dayandıqları halda, *basileus*-u daha çox dini və dünyəvi səlahiyyətləri olan monarx kimi təhlil edirlər. Basileus titulunu qəbul etmiş hökmdarın ilahi bağlarının, ruhani simasının olduğuna inanılır və ya bu abu-hava yaradılırdı. Kahinlik statusu yüklənmiş basileus termini hakimiyyyətin irsən keçməsini  də xarakterizə edir. Etimoloji cəhətdən Homer dövrü və hellenistik dönəmin izlərini daşısa da, qeyri- məhdud səlahiyyətləri ilə mifik pərdəyə büründüyünü də izləmək mümkündür.

Hər iki terminin mahiyyətinin siyasi cərəyanların təsiri ilə dəyişməsi, onlara yeni mənalar yüklənməsi təsadüfi deyildir. Romanın Asiya və Afrikadakı uğurlu addımları, imperiya ərazisinin genişləndirilməsi, yarımüstəqil və müstəqil krallıqların, periferik ərazilərin tez-tez əl dəyişdirməsi, yeni yaranan dinin bütün maneələrə baxmayaraq sürətlə yayılması, Parfiya ilə müharibələrin Sasanilər dövründə də davam etməsi, yad mədəniyyətə sahib xalqlarla aramsız toqquşmalar başqa bir tarixi mərhələyə keçidin əlamətlərindən xəbər verirdi. Güc qütblərində baş verən köklü dəyişiklər beynəlxalq münasibətlərdə, rəsmi sənədlərdə ünvanlara fərqli baxış gətirdi. Respublika dövrünün Roması üçün *rex*-ə ekvivalent olaraq *orxontes* göstərilirdisə, imperiyanın erkən dönəmlərində *basileus*-a bərabər tutulan *rex* quldarlığın dağılma mərhələsində barbar xalqların rəhbərlərini ifadə edirdi. Parfiyanın zəifləməsilə güclənən Qafqaz və Anadolu krallıqları zaman-zaman bufer zona təsiri bağışlasalar da, Roma ilə ixtiyari şəkildə döyüşlərə girir, sülh imzalayır, qənimətlər göndərir, vəziyyətə görə tərəf dəyişdirirdilər. Bu səbəblə Strabon, Appian, Dion Kassinin əsərlərinə istinadən alban *basileus*-unu Şərq aliansına daxil olan müstəqil hökmdarlardan biri  kimi qiymətləndirmək məntiqli sayıla bilər.

Eranın ilk əsrlərinin siyasi mühitini təhlil etdikdə *rex* və *basileus*-un mahiyyətlərindəki yaxınlıq aydın görünür. Lakin latın və yunan dilli qaynaqlardakı məlumatlardan alınan terminlər ayrı-ayrı dəyərləndirildikdə, dövrlərə görə xarakterizə edildikdə bir sıra fərqli məqamlar üzə çıxır. Ünvanlar, titul və digər siyasi anlayışlar Qafqaz Albaniyasının idari quruluşunu, ierarxik strukturunu anlamağa kömək edir.

## ƏDƏBİYYAT


Ammianus Marcellinus. (1939). *Rerum gestarum* (J. C. Rolfe, Trans., Vol. 2). Harvard University Press.

Appian. (1913). *The Mithridatic wars*. In H. White (Trans.), *The foreign wars*. Macmillan.

Arrian. (1964). *Anabasis Alexandri* (F. I. Robson, Trans.). Harvard University Press.

Bais, M. (2023). Caucasian Albania in Greek and Latin sources. In *Caucasian Albania: International handbook* (pp. 3–33). De Gruyter Mouton.

Bakirova, E. A. (2024). The concept of state in ancient world: in the example of Caucasian Albania. In Я. В. Пилипчук (Упорядник), *Коли Захід зустрів Схід. Матеріали міжнародної наукової конференції «Коли Захід зустрів Схід: наукова конференція присвячена пам'яті Андрія Ковалівського», яка відбулась 27-28 травня 2024 р.* (с. 33–38). Український державний університет імені М. Драгоманова.

Boyce, M. (1979). *Zoroastrians: Their religious beliefs and practices*. Boston & Henley.

Cassius Dio. (1914). *Roman history* (E. Cary, Trans., Vol. III). Classical Library edition.

Chrysos, E. K. (1978). *The title basileus in early Byzantine international relations*. Dumbarton Oaks, Trustees for Harvard University.

Coşkun, A. (2021). Galat Krallıqları. In *Hellenistik ve Roma dönemlerinde Anadolu: krallar, imparatorlar, kent devletleri* (s. 1461–1466). Yapı Kredi Yayınları.

Efendiyev, N. (2018). *Kafkasyada Hristiyanlığın tarihsel gelişimi* (Doktora tezi). İstanbul.

Enayatollah, R. (2014). *Azerbaijan and Aran (Caucasian Albania)* (A. Ghazarians, Trans.). London.

Epitomae de Tito Livio bellorum omnium annorum DCC libri duo. (1872). (K. Halm, Ed.). Teubner.

Festus. (1967). *Breviarium* (J. W. Eadie, Ed.). The Athlone Press.

Florus. (1929). *Epitome of Roman History* (E. S. Forster, Trans.). William Heinemann.

Garsoïan, N. G. (1997). The Marzpanate (428–652). In *The Armenian people from ancient to modern times* (pp. 187–199). St. Martin's Press.

Gatzke, A. F. (2019). Mithridates VI Eupator and Persian kingship. *The Ancient History Bulletin, 33*(1–2), 60–80.

Həsənova, M. (2025). Antik müəlliflərdə Alban iti hekayələri və Böyük İsgəndərin Qafqazda olması haqqında müzakirələr. *Akademik Tarih ve Düşünce Dergisi, 12*(4), 936–959.

Justin. (2024). *Epitome of Pompeius Trogus* (J. C. Yardley, Ed. & Trans., Vol. I: Books 1–20). Harvard University Press.

Ksenophon. (2021). *Anabasis* (A. Çokona, Çev.). İstanbul.

Orasii. (1889). *Historiarum libri septem* (C. Zangemeister, Ed.). B. G. Teubneri.

Plinius. (1847–1848). *Naturalis historia* (Transl. F. Holland) Wernerian Club.

Plutarkhos. (2020). *Alexandros* (I. Çokona, Çev.). Türkiye İş Bankası Kültür Yayınları.

Quintus Curtius Rufus. (1946). *History of Alexander* (J. C. Rolfe, Trans.). Harvard University Press.

Qukasyan, V. (1993). *Qafqaz Albaniyası (tarixi filoloji etüdlər)*. Öyrətmən.

Rawlinson, G. (1873). *The sixth great oriental monarchy: The geography, history, and antiquities of Parthia*. Longmans, Green and Co.

Smith, W., Wayte, W., & Marindin, G. E. (Eds.). (1890). *A dictionary of Greek and Roman antiquities*. Harper & Brothers Publıshers.

Solinus. (1895). *Collectanea rerum memorabilium* (Th. Mommsen, Trans.). Apud Weidmannos.

Strabo. (2021). *The Geography of Strabo*. Gece yayınları.

Tacitus. (1937). *The Annals* (J. Jackson, Trans., Vol. III). Harvard University Press.

The Cambridge ancient history: The last age of the Roman Republic (Vol. IX). (1932). (F. E. Adcock & M. P. Charlesworth, Eds.).

Traina, G. (2003). Due note sull'identità politica nel Caucaso antico. In *Gli stati territoriali nel mondo antico* (pp. 317–326). Vita e Pensiero Università.

Velleii Paterculi. (1822). *Historia Romana* (J. C. H. Krau, Ed.). A. J. Valpy.

Wiesehöfer, J. (2023). *Antik Pers tarihi. Ön Asiyanın kadim krallığı* (M. A. İnci, Çev.). Totem yayınları.

Xəlilov, M. (2019). Alban Həvari kilsəsinin fəaliyyəti Qafqaz Albaniyasının Şimal hüdudlarından kənarda. In *Qafqaz Albaniyasının etno-mədəni irsi* (pp. 46–48). Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.

Алиев, К. Г. (1986). *Античные источники по истории Азербайджана*. Элм.

Гаджиев, М. С. (2006). *Государство и право Кавказской Албании*. Махачкала.

Кузнецова, Т. И. (1964). Секст Руф. Бревиарий о победах и провинциях римского народа. In *Памятники поздней античной научно-художественной литературы* (с. 338–342). Москва.

Латышев, В. В. (1904). *Известия древних писателей греческих и латинских о Скифии и Кавказе* (Т. II). Тип. Императорской Академии Наук.

Латышев, В. В. (1906). *Известия древних писателей греческих и латинских о Скифии и Кавказе* (Т. II). Тип. Императорской Академии Наук.

Мамедова, Ф. Дж. (1986). *Политическая история и историческая география Кавказской Албании (III в. до н. э. – VIII в. н. э.)*. Элм.

Мамедова, Ф. Дж. (2005). *Кавказская Албания и албаны*. Центр исследования Кавказской Албании.

Новосельцев, А. П. (1980). *Генезис феодализма в странах Закавказья: опыт срав-*

*нительно-исторического исследования*. Наука.

Пилипчук, Я. В. (2021). Социальная терминология и властные структуры в истории Кавказской Албании. In *Стародавнє Причорномор'я* (Випуск XIII, с. 329–336). Одеський національний університет імені І. І. Мечникова.

Тревер, К. В. (1959). *Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э. – VII в. н. э.* Изд. АН СССР.

*A Dictionary of Greek and Roman Antiquities (1890)* William Smith, LLD, William Wayte, G. E. Marindin, Ed. https://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus:text:1999.04.0063:entry=praefectus-urbi-cn.

Alexander Romance ("Pseudo-Callisthenes" ) https://www.attalus.org/translate/alexander1d.html#39

Ankara Augustus Tapınağı. https://www.turkishmuseums.com/museum/detail/1946-ankara-augustus-tapinagi/1946/1

Appian, *Mithridatic Wars*. Mendelssohn, Ed. http://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A1999.01.0229%3Atext%3DMith.%3Achapter%3D17%3Asection%3D117

Appian. *The Mithridatic wars*. https://topostext.org/work/496

Arrian. *Anabasis Alexandri* https://archive.org/details/L269ArrianAnabasisOfAlexanderI57/page/246/mode/1up?view=theater

Caii Julii Solini *De Mirabilibus Mundi Capitula* http://www.thelatinlibrary.com/solinus2a.html

Chaumont, Marie Louise. ALBANIA. *Encyclopaedia Iranica*. Published December 15, 1985 https://iranicaonline.org/articles/albania-iranian-aran-arm

Florus, *Epitome of Roman History* https://www.loebclassics.com/view/florus epitome_roman_history/1929/pb_LCL231.189.xml?result=1&rskey=5mk1hn&readMode=verso

Historiae Romanae C.Vellei Paterculi https://penelope.uchicago.edu/Thayer/L/Roman/Texts/Velleius_Paterculus/ 2D*.html#94

Jona Lendering. Provincial governors (Roman). https://web.archive.org/web/20150504221228/http://www.livius.org/gi-gr/governor/governor.html

Kaiser. https://en.wikipedia.org/wiki/Kaiser

Michail Grant. *Monumentum Ancyranum*. https://www.britannica.com/topic/Monumentum-Ancyranum

Perfect. https://www.livius.org/articles/concept/prefect/

Plutarch, *Alexander* Bernadotte Perrin, Ed. https://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A1999.01.0243%3Achapter%3D46%3Asection%3D1

*Res gestae divi Augusti ex monumentis Ancyrano et Apolloniensi,* Th.Mommsen, Ed. https://archive.org/details/resgestaediviau01augugoog/page/72/mode/1up

Strabo. *Geography*. https://www.perseus.tufts.edu/hopper/text?doc=Perseus%3Atext%3A1999.01.0197%3Abook%3D11%3Achapter%3D5%3Asection%3D4

The Cambridge Ancient History, Volume 9, J.A.Crook, Ed. https://archive.org/details/the-cambridge-ancient-history-vol.-9/page/255/mode/1up Cambridge 1992.

The Res Gestae of Augustus Published in the Loeb Classical Library, 1924 https://penelope.uchicago.edu/Thayer/E/Roman/Texts/Augustus/Res_Gestae/5*.html

Xenophon. *Anabasis* VII. http://www.poesialatina.it/_ns/greek/testi/Xenophon/Anabasis07.html

**Резюме**

**Мушарраф Гасанова**

**Царские титулы в античном мире: на примере выражений «Albanorum rex» и «Basileus»**

Изучение титулов играет важную роль в реконструкции административной структуры и в определении политической роли Кавказской Албании в контексте соответствующего исторического периода. Упоминание в греко-латинских источниках правителей албанских племён под титулами *rex* и *basileus* открыло новые перспективы для исследователей в изучении политической организации Кавказской Албании. В данной статье рассматриваются семантические значения титулов *rex* и *basileus* в античных источниках, возможность их замены такими титулами, как *архонт* и *сатрап*, их аналоги в ахеменидской и последующих бюрократических системах, а также их исходное положение в социальной иерархии.

***Ключевые слова:*** *басилевс, Albanorum rex, греко-римские источники, триумф Помпея*

**Summary**

**Musharraf Hasanova**

**Royal titles in the ancient world: the case of “Albanorum rex” and “Basileus”**

The study of titles plays a the administrative structure and in defining the role of Caucasian Albania within the political context of the period. The mention of the leader of the Albanian tribes with the titles rex or basileus in Greco-Latin sources has opened a new perspective for historians in the study of the political system of Caucasian Albania. This article examines the semantic meanings of rex and basileus in ancient sources, their possible substitution with other titles such as archon and satrap, their analogues in Achaemenid and subsequent bureaucratic systems, and their initial position within the social hierarchy.

***Keywords:*** *basileus*, *Albanorum rex*, Greco-Roman sources, Pompey’s triumph